# Taleyin töhfəsi



**Mürsəl İrəvanlı,**
**Yazıçı-publisist,**
**M. Qorki adına Beynəlxalq mükafat laureatı**
**Gəncə şəhəri**

**VII yazı**

***...Sivas yığıncağından sonra Mustafa Kamal paşanın məqsədi ən qısa müddət Anadoluda millət təmsilçilərindən ibarət bir məclis toplamaq və bu məclisin yaradacağı hökumət ilə milli mübarizəni vahid bir mərkəzdən idarə etmək idi. Dahi şəxsiyyət bu işi həyata keçirmək üçün Sivas toplantısından sonra da Təmsilçilər Heyətinin sədri kimi milli bir təşkilatın qüvvətləndirilməsi yolunda bütün əngəlləri ləğv edərək əzmlə çalışırdı. Bu ərəfədə Mustafa Kamal və Təmsilçilər heyəti ilə əlaqə yaratmaq və razılığa gəlmək yolları axtaran İstanbul hökuməti təmsilçilərin vasitəsilə 20-22 oktyabr 1919-cu ildə Amasiyada onunla təmasda olmuş və bir millət məclisinin toplanmasına inanmışdı. Bu görüş Türk tarixində "Amasiya görüşləri" kimi hələ də xalqın yaddaşından silinməmişdir. Mustafa Kamal paşa məclisin Anadoluda toplanmasını istəməsinə baxmayaraq qarşı tərəfin təkidi ilə 12 yanvar 1920-ci ildə İstanbulda toplandı. Buna baxmayaraq ingilislərin, istərsə də onların əlində alət olan hökumət adamlarının təsiri ilə lazımi bir fəaliyyət göstərə bilmədi. Yalnız Ərzurum və Sivas konqreslərinin qərarlarını 'Milli And" halında qəbul və elan etdi.***

Bundan sonra Mustafa Kamal paşa 27 dekabr 1919-cu ildə bir qrup nümayəndə heyəti ilə birlikdə Ankaraya qayıtdı. Artıq milli mübarizə Ankaradan idarə olunur. İstanbuldakı bir çox hərbi və mülki vətənpərvərlər isə istiqlaliyyət mübarizəsində tapşırıq almaq üçün Ankaraya gəlirdi. Çox keçməmiş – 16 mart 1920-ci ildə İstanbul Antanta dövlətləri tərəfindən tamamən işğal olundu və şəhərdə əcnəbilər hökmranlıq etməyə başladılar. Belə bir vəziyyətdə Məclis fəaliyyət göstərə bilməyəcəyini qətiləşdirərək dağıldı, millət vəkillərinin bir qismi də ingilislər tərəfindən həbs olundular. İstanbulun işğalından sonra Mustafa Kamal valiliklərə və korpus komandanlıqlarına məlumat verərək, Ankarada toplanacaq fövqəladə səlahiyyətə malik bir məclisə yeni təmsilçilər seçilməsini tövsiyə etdi. Seçkilər sürətlə başa çatdı.

***Nəhayət, 23 aprel 1920-ci ildə ölkənin hər yerindən gələn millət nümayəndələrinin iştirakı ilə Ankarada Türkiyə Böyük Millət Məclisi açıldı. Mustafa Kamal Millət iradəsini və hegemonluğunu təmsil edən bu Məclisə və onun hökumətinə sədr seçilərək, artıq Türkiyənin İstiqlal mübarizəsinin hər baxımdan – hərbi, siyasi və sosial sahələrin lideri oldu. Ancaq ölkənin məhkum olduğu şərtlər ağır, onun öhdəsinə düşən tarixi missiya isə olduqca çətin idi. O, tarixdən silinmək təhlükəsi qarşısında qalmış bir millətin ölüm-dirim müharibəsinin, istiqlaliyyət yönümündə mübarizəsinin liderliyini edirdi.***

Ankarada Millət Məclisinin açılması və Milli hökumətin yaradılması ilə bağlı Sultan və İstanbul hökuməti isə öz növbəsində milli mübarizəni daha geniş miqyasda əzmək yolunu seçmişdi. Anadoluda min bir fədakarlıqla təşkil olunan milli qüvvələrə qarşı Xəlifə və Sultan orduları yaradılır, başda Atatürk olmaqla, Milli Mübarizə Qəhrəmanları qiyamçı elan edilərək edama məhkum olunurdular. Digər tərəfdən İzmirə çatmış yunanlar da Anadolunun içərilərinə doğru hücuma hazırlaşırdılar. Müqavilə şərtlərinə əsasən, nizami Sultan ordusu rəsmən dağıdılmış və silahlar müsadirə edilmişdi. Bunun da nəticəsində işğal olunmuş bölgələrdə düşmənə qarşı yalnız məhəlli qüvvələr və könüllü dəstələr fəaliyyətdə idi. Xarici düşmənlərin işğalçı hərəkətləri ilə yanaşı Anadolunun bəzi rayonlarında da daxili düşmən ünsürlər də baş qaldırmışdı. Erməni əsilli Aznavur Vartaşen, Çopur Movses, Postaçı Nazar və başqalarının başçılıq etdikləri dəstələr Milli Mübarizə tərəfdarlarına arxadan zərbə vurmaq, onu zəiflətmək üçün üsyan və iğtişaşlar təşkil edirdilər.

Bütün bu daxili və xarici çətinliklərə, ağır və dözülməz şəraitə baxmayaraq, Türkiyə Böyük Millət Məclisi hökuməti qısa zaman kəsiyində vəziyyətə hakim olaraq müdaxiləyə qarşı müxtəlif cəbhələrdə böyük uğurlar qazanmağa nail oldu. Belə ki, Şərq cəbhəsində 15-ci Korpus komandanı Kazım Qarabəkir paşanın tabeliyində olan qüvvələr, Oltu, Sarıqamışı, Qarsı, Ağbabanı azad etməklə, sərhəd bölgələrinə daxil olan və erməni qiyamçılarına yardıma gələn daşnak ordusuna qarşı 28 sentyabr 1920-ci ildə qəti hücuma keçərək erməni ordusunu darmadağın etdi.

Erməni "Ararat" hökuməti məğlubiyyət qarşısında 2-3 dekabr 1920-ci ildə Qars sülh müqaviləsini imzaladı. Beləliklə də, Şərq cəbhəsində müharibə başa çatdı. Cənub cəbhəsində də Adana, Urfa, Antep və Maraş (burda ermənilər çoxluq təşkil edirdi) rayonlarında fransız və erməni quldurları ilə məhəlli qüvvələr arasında şiddətli vuruşmalar ara vermirdi. Nəticədə qarşı tərəflər təslim olmağa, silahları tullayıb qaçmağa məcbur oldular. Maraş erməniləri "Ermənistan"a, fransızlar isə 21 oktyabr 1921-ci ildə "Ankara müqaviləsi"ni imzalayaraq öz vətənlərinə getdilər.

Yunanların Qərb cəbhəsindəki irəliləyişi bir sıra rayonlarda qüvvə çatışmazlığı ucbatından, işğala məruz qalması ucbatından, Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Kamal paşa cəbhə komandanları ilə görüşmüş və könüllü qüvvələrin əvəzinə nizami ordu yaradılması zərurətini inandırıcı şəkildə irəli sürmüşdü. Çünki hadisələrin gedişatı göstərirdi ki, Milli Mübarizənin müvəffəqiyyəti bütün qüvvələrin nüfuzlu bir şəxsiyyətin rəhbərliyi altında toplanmasından asılı idi.

***Artıq Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Kamal paşa, Milli Müdafiə naziri Fevzi Çakmak paşa və Baş Qərargah rəisi və eyni zamanda Qərb cəbhəsi komandanı polkovnik İsmət bəy bütün qüvvələrini nizami ordunun yaradılmasına vermişdilər.***

1920-ci il dekabr ayının sonları idi. Bir çox milli qüvvələr, könüllü dəstələr surətlə milli ordu ətrafında toplanırdı. Ancaq təəssüflər olsun ki, əllərində müəyyən qüvvə olan milli satqın Çərkəz Ədhəm və onun qardaşları Qərb cəbhəsi qüvvələrinə tabe olmaq istəmirdilər. Başqa böyük bir siyasət yeritmək yolunu seçdilər. Qardaşlar milli mübarizənin ağır günlərində qazandıqları bir sıra nailiyyətlərin təsiri altında yerləşdikləri rayonlarda mülki məmurları istədikləri kimi işdən kənarlaşdırır və ya vəzifələrdə yerdəyişmələr edir, yeni təyinatlar verirdilər.

20 dekabr 1920-ci ildə Qərb Cəbhəsi komandanı İsmət bəylə Cənub cəbhəsi komandanı polkovnik Rüfət bəy, Çərkəz Ədhəm və onun qüvvələrini aradan qaldırmaq üçün irəliyə doğru hərəkətə keçdilər. Kütahya ətrafında yerləşmiş Çərkəz Ədhəmin qüvvələri, Qərb cəbhəsi qoşunları Kütahyanı tutduğu üçün Qedizə çəkildi.

***1921-ci il yanvarın 5-də nizami ordu qüvvələri Qedizi də tutduqda Çərkəz Ədhəmin dəstəsi Simav tərəfə çəkilmək zorunda qaldı. Əslində həmin vaxt Milli mübarizənin ən dramatik çağları idi. Qərb cəbhəsi qüvvələri Çərkəz Ədhəm üsyanını yatırmaq üçün əvvəlki hərbi mövqelərindən xeyli uzaqlaşmış, Qedizə qədər aralanmışdılar. Çərkəz Ədhəmi daban-dabana təqib etdikləri üçün cəbhənin əsas hissəsinin seyrəldiyini, əsgərlərin mövqelərdən xeyli uzaqlaşdığını duyan yunanlar 6 yanvar 1921-ci ildə həm Bursa, həm də Uşak cəbhələrində gözlənilməz hücuma başladılar. Məqsədləri Əskişəhər və Afyonu tutmaq və Ankara yolunu açmaq idi. Bu şəhərlərin əldən çıxması çox əhəmiyyətli dəmir yolu qovşağının da düşmən əlinə keçməsi demək idi. Üstəlik, Bursa və Uşak cəbhələrindən irəliləyən düşmən dəstələri Kütahya yaxınlığında birləşmək imkanı taparsa, Çərkəz Ədhəmə qarşı geridə qalan qüvvələrə qarşı da arxadan zərbə endirə bilərdi.***

Düşmən hücumu nəticəsində daha da kəskinləşən böhranlı durumla bağlı qərb və Cənub cəbhəsi komandanları təcili görüşərək istər-istəməz Çərkəz Ədhəmin təqibinə ara verməyi, Kütahya və Qedizə qədər gəlmiş olan qüvvələrin böyük hissəsini vaxt itirmədən İnönü və Dumlupinar ətrafına çəkmək haqqında razılığa gəldilər. Ancaq Qərb Cəbhəsi qüvvələrinin yerləşdiyi Qediz və Kütahya ətrafları ilə İnönü arasında piyada üç günlük bir yol var idi. Belə olan halda Çərkəz Əhməd dəstəsinə qarşı bir sıra qüvvələr Kütahya ətrafında saxlanaraq qalan qüvvələr İnönü ətrafına doğru irəlilədi. Beləliklə, 11-ci diviziyanın əsgərləri yanvarın 9-da (1921-ci il) səhər tezdən İnönü ətrafına yetişdi.

Digər tərəfdən, yunanlar surətlə irəliləyərək 8 yanvar 1921-ci ildə Çivril və Pazarcığı, 9 yanvarın səhəri isə Biləcik və Bozuyükü ələ keçirdilər. Lakin bütün işğallara, ağır vəziyyətə, iki düşmən arasında müharibə aparılmasına baxmayaraq son nəticədə qələbənin Atatürk tərəfdarlarının tərəfində olacağı heç şübhəsizdi. Atatürk 8 yanvar 1921-ci ildə Türkiyə Böyük Millət Məcdisi kürsüsündən belə deyirdi:

- "Əfəndilər! Daxili və xarici düşmənlərimiz say etibarilə istər çox, istərsə də az olsun, fəaliyyətlərinin genişliyi hansı səviyyədə olursa olsun bu fərq etməz. Qəti müvəffəqiyyət, son qələbə və əlbəttə ki, müvəffəqiyyət qanuni bir məqsəd uğrunda mübarizə aparanların tərəfində olacaqdır..." (Bax: Ulkan Kocatürk. "Atatürk və Türkiyə Cümhuriyyəti Tarixi Xronologiya". 1983-cü il, səh. 226, Ankara).

Birinci İnönü vuruşmaları 9 yanvar 1921-ci ildə günortadan sonra yunanların Bozuyuk tərəfdən şiddətli hücumu ilə başlandı. Balaca bir kəndin (hazırda böyük bir şəhərtipli qəsəbədir) adını daşıyan İnönü, Türkiyə Milli Azadlıq hərəkatında dönüş nöqtəsi kimi tarixə daxil olan döyüşlərin səhnəsinə çevrildi. İllər keçdikdən sonra bu vuruşlara rəhbərlik edən komandana Atatürk tərəfindən "İnönü" ləqəbi verildi.

Döyüşlər yanvarın 10-da səhərdən axşama qədər davam etdi. Həmin gün Qərb cəbhəsinin komandanı polkovnik İsmət bəy də Qedizdən döyüş meydanına gəlmiş, qarşıdurmanı bilavasitə atəş xəttindən idarə etməyə başlamışdı.

Türk əsgərləri ara vermədən davam edən düşmən hücumlarına baxmayaraq bir addım belə geri çəkilmir, yunanların irəliləməsinə imkan vermirdilər. Ən nəhayət, sarsılan, gücdən düşən düşmən oldu. İki gün davam edən hücumlardan heç bir nəticə əldə edə bilmədiyini başa düşən müdaxiləçilər geri çəkilməyə qərar verdilər. Bu qələbə sevincini qəbul edən Atatürk 11 yanvar 1921-ci il tarixdə Qərb cəbhəsinin komandanı polkovnik İsmət bəyə yazdığı teleqramda göstərirdi: ***'Bu qələbənin müjdəsi çox önəmlidir. Müqəddəs torpaqlarımızın düşmən istilasından tamamən qurtaracağı günləri lap yaxındadır. Əldə olunan müvəffəqiyyətin başlanğıc olması münasibətilə Qərb cəbhəsinin bütün zabit və əsgər heyətini qazandıqları bu şanlı zəfər münasibətilə şəxsən mənim adımdan təbrik etməyi unutma..." (Bax: Ulkan Kocatürk, "Atatürk və Türkiyə Cümhuriyyətinin Tarixi Xronologiyası" əsəri, Ankara, 1983-cü il, səh. 227-228).***

İnönü cəbhəsindəki qələbə sorağı tezliklə daxildə və xaricdə böyük əks-sədaya səbəb oldu, ciddi siyasi irəliləyişə zəmin yaratdı. Məhz bu sıçrayışdan sonra əvvəllər ümidsizliyə qapanmış yeni dövlət sarsılmaz təməllər üzərində möhkəmlənməyə başladı.



20 yanvar 1921-ci ildə ilk Konstitusiya Türkiyə Böyük Millət Məclisində səs çoxluğu ilə qəbul olundu. Bundan sonra daxildə ictimai asayiş və dövlətə etimad təmin edilmiş, nizami ordu yaratmaq işləri xeyli asanlaşmışdı. Tarixi qələbənin xaricdə yaratdığı təsirlər də əhəmiyyətli idi.

Bu zəfər ilə nizami ordu düşmən qarşısında ilk sınağını nümayiş etdirir, dost və düşmən qarşısında yenilməz iradəsini göstərirdi. Bu qələbə əcnəbi dövlətlərə də artıq milli hökumətin sayıla biləcək bir qüvvə olduğunu tam sübuta yetirdi. Bu irəliləyişlə əlaqədar idi ki, Antanta dövlətləri 21 fevral 1921-ci ildə baş tutan London konfrasına İstanbul hökuməti ilə yanaşı, Ankara hökumətini də dəvət etdilər. Məlum həqiqətdir ki, qələbənin əsl sahibi Ankara hökuməti idi.

Bu səbəbdən də Ankara nümayəndələri Osmanlı heyəti içində oturmayıb Milli Mübarizəni müdafiə etmək üçün ayrıca heyət təşkil etdilər. Nəticədə Osmanlı nümayəndələrinin başçısı Baş vəzir Tofvik paşa konfransda səlahiyyətli nümayəndə kimi iştirak edən Ankara hökuməti elçilərinə güzəştə getmək məcburiyyətində qaldı. Əslində bu da növbəti qələbə idi. Bunun bariz nümunəsi olaraq Antanta dövlətləri yeni bir sülh təklifi hazırlamağa məcbur oldular. Yenə birinci İnönü qələbəsinin milli hökumətə qazandırdığı xarici etibar nəticəsində 16 mart 1921-ci ildə Sovet Rusiyası ilə "Moskva müqaviləsi" imzalandı. Londonda da Fransa və İtaliya ilə sülh yolunda bəzi müzakirələr baş tutdu.

***Ancaq yunanlar bu məğlubiyyətdən ibarət dərsi götürməyərək, az müddətdən sonra – 23 mart 1921-ci ildə həmin cəbhələrdə növbəti yürüşə başladılar. 27 mart 1921-ci ildə yunanların İnönü mövqelərinə hücumu ilə kəskinləşən ikinci İnönü döyüşlərində də birinci mübarizədə olduğu kimi Qərb cəbhəsi qüvvələrinin əks-hücuma keçməsi nəticəsində yunanlar növbəti dəfə də 1 aprel 1921-ci il tarixində türk torpaqlarında minlərlə meyid qoyaraq meydanı tərk etmək məcburiyyətində qaldılar.***

***Beləliklə də, Qərb cəbhəsində düşmənə qarşı ikinci İnönü zəfəri adını alan yeni böyük bir uğur qazanıldı. Mustafa Kamal paşa Qərb cəbhəsinin komandanı İsmət bəyə göndərdiyi teleqramda deyirdi: 'Siz orada yalnız düşmənin deyil, həmçinin millətin bədbəxtçiliyinin qarşısını alıb, sədd çəkdiniz. Mən bundan çox mutluyum..." (Bax: Kemal Atatürk, Nutik II, səh. 580, İstanbul 1935-ci il).***

**ardı var**